# ELM

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

№ 23 (1505) ❖ Cümə, 17 iyul 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur





## Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında regional və qlobal çağırışları təhlil edib

**İyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib, Forum iştirakçılarının suallarını cavablandırıb.

Forumda 53 ölkədən 160 qonaq, o cümlədən 30 xəbər agentliyinin nümayəndələri, 60-dan artıq media qurumu, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilat və təsisat iştirak edib. Son dörd il ərzində Forum 81 ölkənin 600-ə yaxın media nümayəndəsini bir araya gətirib.

Foruma "Euronews"un yayım jurnalisti Laura Bakvel moderatorluq edib.

Prezident İlham Əliyev Şuşada bu cür mötəbər auditoriyanı qəbul etməyin böyük şərəf hissi yaşatdığını bildirərək, Forumun ideyasının maraq doğuran məsələləri, qarşılıqlı surətdə narahatlıq doğuran sualları müzakirə etmək, həmçinin Qarabağ və Şuşa ilə tanış olmaq məqsədilə dünyanın müxtəlif guşələrindən media nümayəndələri üçün mühit yaratmaqdan ibarət olduğunu deyib.

"Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman, bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər. Onlar yeni mənzillərdə və evlərdə yaşayan insanları görürlər. Bir sözlə, bu, müxtəlif meyarların kombinasiyasıdır... Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Hudson İnstitutunun baş araşdırmaçısı Ken Moriyasunun təqdimatında ilk sual Qırmızı dəniz və Hörmüz boğazındakı böhranlar fonunda quru dəhlizlərinin dəniz marşrutları qədər strateji əhəmiyyəti və bu kontekstdə Azərbaycanın növbəti onillikdə rolu barədə olub.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan coğrafi mövqeyindən yararlanaraq son onillikdə həm güclü nəqliyyat infrastrukturu qurub, həm də qonşu dövlətlərlə qarşılıqlı etimada əsaslanan uğurlu əməkdaşlıq formalaşdırıb. Eyni zamanda, hazırda dünyada baş verən geosiyasi böhranlar fonunda ölkəmizin təklif etdiyi quru və Xəzər dənizi tranzit marşrutları qlobal yükdaşımalar üçün ən təhlükəsiz və cəlbedici dəhlizə çevrilib. Ölkə başçısı vurğulayıb ki, yaranan bu böyük tələbatı qarşılamaq üçün hazırda Bakı dəniz limanının gücü 25 milyon tona çatdırılır və yeni gəmilər inşa edilməklə Mərkəzi Asiya ilə Avropa arasındakı strateji körpü rolu daha da möhkəmləndirilir.

Anadolu Agentliyinin vitse-prezidenti və baş redaktoru Yusuf Özhan Türkiyə və Azərbaycan dövlətlərini bir almanın iki hissəsi kimi xarakterizə edib, "Sizin Türkiyə xalqına mesajınız nə olardı?" sualı ilə müraciət edib.

Prezident İlham Əliyev Türkiyə və Azərbaycanı dünyanın bir-birinə ən yaxın, qarşılıqlı dəstək verən və dost olan iki dövləti kimi qiymətləndirib, bu qardaşlığın hər iki xalq üçün böyük bir zənginlik olduğunu bildirib. Dövlətimizin başçısı beş il əvvəl Şuşada imzalanan bəyannamə ilə münasibətlərin rəsmən müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayaraq, hər hansı təhlükə anında ölkələrin bütün potensialı, o cümlədən hərbi gücü ilə bir-birinin müdafiəsinə qalxacağını qeyd edib. Prezident İlham Əliyev etnik köklər, ortaq mədəniyyət və ümumi tarixin yaratdığı bu sıx birliyin regional sabitlik və təhlükəsizlik üçün mühüm meyar olduğunu diqqətə çatdıraraq, Türkiyə-Azərbaycan münasibətlərinin bütün qonşu dövlətlər üçün örnək təşkil etdiyini deyib.

Növbəti sualı Rumıniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü, senator, hüquqşünas Kristian Auqustin Nikolesku Taqalisi təqdim edib. Son illər ərzində Azərbaycanın regional və beynəlxalq səviyyədə öz strateji mövqeyini inkişaf etdirmək, onu gücləndirmək kimi maraqlı prosesdən keçdiyini vurğulayaraq, Avropa təsisatı ilə daha sıx əməkdaşlıq üçün hansı addımlar atılmalı olduğunu sual edib.

Prezident İlham Əliyev bildirib ki, Avropa diplomatiyasının əvvəlki rəhbəri Cozep Borrelin anti-Azərbaycan qrupları ilə əlbir olması səbəbindən əvvəlki Avropa Komissiyası ilə münasibətlərdə çətin dövrlər yaşansa da, Brüsseldən gələn yeni rəhbərliyin ardıcıl rəsmi səfərlərindən sonra bu əlaqələr müsbət məcrada yaxşılaşmağa başlayıb.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, Avropa Şurası Parlament Assambleyası (AŞPA) isə 2023-cü ilin sentyabrında Azərbaycanın öz suverenliyini bərpa etməsindən sonra nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edərək qərəzli sanksiyalar tətbiq edib.

Prezident İlham Əliyev bu ədalətsizliyə cavab olaraq Azərbaycanın AŞPA-dakı fəaliyyətini dayandırdığını, rəsmi Bakının qurumun hakimlərini seçmədiyi üçün onların qərarlarını da tanımadığını və hətta Avropa Şurasından tamamilə çıxmaq imkanını ciddi şəkildə nəzərdən keçirdiyini vurğulayıb.

Qeyd edib ki, Azərbaycan bu təsisatlarla toqquşma axtarmır və münasibətlərin normallaşmasına hazırdır, lakin dalandan çıxmaq üçün ilk addımı əlaqələri qanunsuz olaraq pozan qarşı tərəf atmalı və Azərbaycanın səsvermə hüququnu bərpa etməlidir.

IV Şuşa Qlobal Media Forumunun açılışında xarici jurnalistlər tərəfindən Prezident İlham Əliyevə qlobal geosiyasətin və regional əlaqələrin ən aktual mövzularını əhatə edən mühüm suallar ünvanlanıb.

Xüsusilə ABŞ-Azərbaycan münasibətlərindəki strateji tərəfdaşlıq mərhələsi, rəsmi Bakının digər qlobal güclərlə qurduğu dürüst dialoq və ölkəmizin beynəlxalq arenada orta güc kimi artan çəkisi barədə suallar təqdim edilib.

Paralel olaraq, Forum iştirakçıları tərəfindən Ukrayna müharibəsinin həlli yolları, Yaxın Şərqdəki mövcud böhran şəraitində İranla əlaqələrin gələcəyi, eləcə də Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı alternativ rol və Orta Dəhliz çərçivəsində Çinlə tərəfdaşlığı diqqət mərkəzinə gətirilib.

Eyni zamanda, postmünaqişə dövründə Cənubi Qafqazın yeni mənzərəsi, Bakı Təşəbbüs Qrupunun müstəmləkəçiliklə mübarizəsi və gələcək nəsillərin milli ləyaqət prinsiplərinə sadiqliyi kimi konseptual mövzular ətrafında verilən suallar dövlətimizin başçısının ətraflı şərhləri ilə cavablandırılıb.

# Azərbaycan-Çin elmi əlaqələri yeni

*AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin*

## Azərbaycanla Çin arasında elmi istiqamətdə əlaqələr üçün geniş imkanlar mövcuddur







**Çinin Hebey əyalətinin Sionqan Yeni Rayonunda 24-cü Beynəlxalq İstedad Mübadiləsi konfransı keçirilib.**

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli 30 ölkədən 400-dən çox nümayəndənin iştirak etdiyi Beynəlxalq konfransın təntənəli açılış mərasimində çıxış edib.

Azərbaycanla Çin arasında əlaqələrin qədim dövrlərdən Böyük İpək Yolu vasitəsilə yaradıldığını qeyd edən akademik İsa Həbibbəyli bildirib ki, hələ XII əsrdə dahi Azərbaycan şairi Nizami Gəncəvi "Yeddi gözəl" poemasında Çin motivləri əsasında da maraqlı obraz yaratmışdır.

Azərbaycan-Çin əlaqələrinin möhkəm təməllərinin Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan AMEA rəhbəri bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradəsi ilə iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın hərtərəfli və geniş miqyasda inkişaf etdirildiyini diqqətə çatdırıb. Bu münasibətlər sayəsində elm istiqamətində də əlaqələrə geniş meydan açıldığını deyən akademik İsa Həbibbəyli elm-texnika və humanitar sahələrdə əməkdaşlığın dərinləşdiyini, artıq elmi mübadilənin əhəmiyyətli nəticələrinin özünü göstərdiyini vurğulayıb. Həmçinin Azərbaycan Milli Elmlər Akademiyası ilə Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Pekin Xarici Dillər Universiteti, Hebey Pedaqoji Universiteti və bir sıra digər elmi qurum və universitetlər arasında imzalanmış anlaşma memorandumlarının praktiki nəticələr verdiyini, eyni zamanda AMEA-nın müxtəlif elmi-tədqiqat institutları ilə bir sıra tədqiqatlar aparıldığını və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Qarşılıqlı əlaqələrin daha da dərinləşəcəyinə və elmi əməkdaşlığın yeni səhifələrinin yazılacağına inamını ifadə edən akademik İsa Həbibbəyli çıxışında İctimai və humanitar elmlər üzrə süni intellekt və rəqəmsal inkişaf sahəsində yeni perspektivlərin açıldığını qeyd edib.

Beynəlxalq elmi konfransın açılış mərasimində həmçinin Sionqan Yeni Rayonu İnzibati Komitəsinin baş icraçı direktoru və Çin Sionqan Qrupunun sədri Vu Bo, Hebey əyaləti Xalq hökumətinin vitse-qubernatoru Gao Daçun, Çin Elmlər Akademiyasının vitse-prezidenti akademik Vanq Kıçianq, Çinin İnsan resursları və sosial təminat nazirinin müavini Yü Ciadonq, Çin Elmlər Akademiyasının xarici üzvü, Almaniya Elmlər Akademiyasını təmsil edən akademik Donald Dingvell çıxış ediblər.

Sonra beynəlxalq konfrans öz işini panel iclasları, şəbəkələşmə sessiyaları və elmi müzakirələrlə davam etdirib, həmçinin sahə ziyarətləri, təcrübə mübadiləsi aparılıb.

Akademik İsa Həbibbəyli beynəlxalq konfransda iştirak edən Avstriya, Tailand, Kanada Elmlər Akademiyalarının prezidentləri, Hebey Pedaqoji Universitetinin rektoru ilə görüşlər keçirib, elmi əməkdaşlıq əlaqələri müzakirə edilib.

# Hebey Sosial Elmlər Akademiyasının prezidenti ilə görüş

**Beynəlxalq İstedad Mübadiləsi konfransında iştirak etmək üçün Çində səfərdə olan Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli Çinin Şiciaguanq şəhərində Hebey Sosial Elmlər Akademiyasının prezidenti professor Lü Sinbin ilə görüşüb.**



Çin və Azərbaycanın dövlət başçılarının birgə diqqəti sayəsində iki ökə arasında bütün sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndiyini deyən professor Lü Sinbin Azərbaycanın Çinin "Kəmər və yol" layihəsini beynəlxalq miqyasda ilk dəstəkləyən ölkələrdən biri olduğunu xüsusi vurğulayıb. Son illərdə elm sahəsində də əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran professor rəhbərlik etdiyi Hebey Sosial Elmlər Akademiyası ilə AMEA arasında 2024-cü ildə imzalanmış anlaşma memorandumunun müddəalarına uyğun olaraq müxtəlif elmi istiqamətlər üzrə əməkdaşlığın genişləndiyini bildirib.

AMEA-nın prezidenti İsa Həbibbəyli Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi ilə bütün istiqamətlər üzrə yaranmış əlaqələrin elm sahəsində də davam etdirildiyini bildirib. AMEA ilə Hebey Sosial Elmlər Akademiyası arasında elmi əməkdaşlıq əlaqələrinin inkişaf etdiyini vurğulayan akademik nəzərdə tutulmuş yeni layihələr haqqında məlumatları da müzakirə üçün diqqətə çatdırıb. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda icrasına başlanan "Azərbaycan ədəbiyyatında Çin mövzusu" layihəsi barədə məlumat verən İsa Həbibbəyli "Kəmər və yol" təşəbbüsü çərçivəsində elm və mədəniyyətlərin dialoqu mövzusu üzrə də müştərək araşdırmalara başlamağı təklif edərək iki elmi qurum arasında bundan sonra da əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətli olacağını deyib.

Akademik İsa Həbibbəyli Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının Çin motivləri əsasında çəkilmiş rəsm əsərini professor Lü Sinbinə hədiyyə edib. Sonda qarşılıqlı olaraq yeni çap edilmiş elmi nəşrlər və xatirə hədiyyələri təqdim olunub.

Görüşdə Hebey Sosial Elmlər Akademiyasının rəhbər heyəti ilə yanaşı Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev, Hebey Pedaqoji Universitetinin Beynəlxalq mədəni mübadilə fakültəsinin dekanı, eyni zamanda, Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Assosiasiyanın prezidenti, professor Çi Siaoyən və başqaları iştirak ediblər.

# inkişaf mərhələsinə qədəm qoyur

## *Çin Xalq Respublikasına səfəri*

## AMEA ilə Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Assosiasiyası arasında anlaşma memorandumu imzalanıb

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Çin Xalq Respublikasına səfəri çərçivəsində Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Assosiasiyasının prezidenti, tarix elmləri doktoru, professor Çi Siaoyən ilə görüşüb.**

Əvvəlcə Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Assosiasiyası haqqında videoçarx nümayiş olunub.

Görüşdə çıxış edən Assosiasiyanın prezidenti, tarix elmləri doktoru, professor Çi Siaoyən rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Assosiasiyası ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında imzalanacaq anlaşma memorandumunun əhəmiyyətini vurğulayan qurum rəhbəri qarşılıqlı elmi əlaqələrin inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.




AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək səmimi qarşılanmaya görə qurumun rəhbərliyinə təşəkkürünü bildirib. Azərbaycanla Çinin elmi qurumları arasındakı əlaqələrin yüksək templə inkişaf etdirildiyini vurğulayan AMEA rəhbəri bu gün imzalanacaq anlaşma memorandumunun elmi əlaqələrimizin genişləndirilməsinə şərait yaradacağını diqqətə çatdırıb.

Sonda Azərbaycan Milli Elmlər Akademiyası ilə Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Assosiasiyası arasında Anlaşma memorandumu imzalanıb. Sənədi Azərbaycan tərəfindən akademik İsa Həbibbəyli, Çin tərəfindən isə professor Çi Siaoyən imzalayıblar.

Görüşdə qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim edilib.

## AMEA ilə Hebey Pedaqoji Universiteti arasında birgə elmi fəaliyyət üzrə razılıq əldə olunub



**Çinin Hebey əyalətində Beynəlxalq İstedad Mübadiləsi Konfransında iştirak etmək məqsədilə bu ölkədə olan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli səfər çərçivəsində Hebey Pedaqoji Universitetinin rektoru professor Li Quicün ilə görüşüb.**

Görüşdə çıxış edərək Azərbaycanla elmi-mədəni əlaqələrin genişləndiyini bildirən professor Li Quicün elm və ali təhsil sahələrində ölkələrimiz arasındakı əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Bu məqsədlə yaxın perspektivdə rəhbərlik etdiyi universitetlə Azərbaycan Milli Elmlər Akademiyası arasında anlaşma memorandumu imzalanmasının müxtəlif elm sahələri üzrə əlaqələrin genişləndirilməsinə şərait yaradacağını bildirib.

Sonra akademik İsa Həbibbəyli çıxış edərək iki ölkənin elm və ali təhsil müəssisələri arasında yaranmış əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini deyib. AMEA-da mövcud olan elm sahələri üzrə Hebey Pedaqoji Universiteti ilə əməkdaşlıq əlaqələrinin qurulması sayəsində səmərəli nəticələr əldə olunacağına inamını ifadə edən akademik İsa Həbibbəyli imzalanacaq memorandum üzrə müvafiq təklifləri irəli sürüb.

Akademik İsa Həbibbəyli 2024-cü ildə Hebey Pedaqoji Universiteti ilə birgə keçirilmiş "Xəzərdən Çinə: ədəbiyyat, texnologiya və sosial həyat" beynəlxalq elmi konfransın əhəmiyyətini bir daha vurğulayaraq gələcəkdə də müştərək konfransların təşkil edilməsinin önəmini diqqətə çatdırıb.

Fikir mübadiləsi və müzakirədən sonra iki qurum arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə fəaliyyət üzrə razılıq əldə olunub.

Görüşdə Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev, Hebey Pedaqoji Universitetinin Beynəlxalq Mədəni Mübadilə Fakültəsinin dekanı, eyni zamanda Hebey Beynəlxalq İstedadlar Mübadiləsi Asosisasiyanın prezidenti, tarix elmləri doktoru, professor Çi Siaoyən və digər alimlər iştirak ediblər.



## Hebey muzeyi Azərbaycanla əməkdaşlıqda maraqlıdır

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Çinə səfəri çərçivəsində Şiciaguanq şəhərində yerləşən Hebey əyalət muzeyini ziyarət edib.**

Əvvəlcə muzeyin partiya katibi və direktoru Sionq Huybiao ilə görüş olub. Muzeyin tarixi və burada saxlanılan unikal eksponatlar barədə məlumat verən Sionq Huybiao Azərbaycanla elmi əməkdaşlıq əlaqələri yaratmaq, birgə tədqiqat işləri aparmaqda maraqlı odluqlarını bildirib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli isə öz növbəsində Çinin elmi qurumları ilə yaradılmış əlaqələrdən danışıb, muzey eksponatları üzərində elmi-tədqiqat işlərinin aparılmasının əhəmiyyətinə toxunub.

Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

Akademik İsa Həbibbəyli muzeyi ziyarət edib, zalları gəzib və eksponatlarla yaxından tanış olub. AMEA prezidentinə muzeyin tarixi və burada nümayiş olunan maddi mədəniyyət nümunələri barədə ətraflı məlumat verilib.

Akademik İsa Həbibbəyli Azərbaycanla Çin arasında elmi əməkdaşlıq əlaqələrinin inkişafındakı xidmətlərinə görə təltif edilmiş Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının müdiri filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevə AMEA-nın xatirə nişanını təqdim edib.

# Elmin populyarlaşdırılması işinin təşkili və qarşıda duran vəzifələr

**AMEA Rəyasət Heyətində Akademiyada elmin populyarlaşdırılması işinin təşkili və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək ölkəmizdə elmi nailiyyətlərin təbliği və təşviqi istiqamətində görülən işlər sırasında Akademiyada elmin populyarlaşdırılması işinin əhəmiyyətini xüsusi vurğulayıb, qarşıda duran vəzifələrdən danışıb. Bu məqsədlə AMEA Rəyasət Heyəti aparatının digər şöbələri ilə yanaşı Elmin populyarlaşdırılması şöbəsinin də üzərinə mühüm vəzifələrin düşdüyünü bildirən akademik İsa Həbibbəyli şöbə qarşısında Akademiyada Elm Günü tədbirlərinin keçirilməsinin təşkili, elmi nailiyyətlər sərgilərinin hazırlanması, görkəmli alimlərin yubileylərinin qeyd edilməsi, elm festivallarının, Akademiya muzeyinin işinin idarə olunması, elmin nailiyyətlərinin təbliğinin həyata keçirilməsi və koordinasiyası məsələlərinin dayandığını qeyd edib. AMEA rəhbəri Akademiyada elmin populyarlaşdırılması istiqamətində qarşıda duran vəzifələr barədə əməkdaşlara tövsiyə və tapşırıqlarını verib.



Sonra AMEA Rəyasət Heyəti aparatının Elmin populyarlaşdırılması şöbəsinin müdiri biologiya elmləri doktoru dosent Tubuxanım Qasımzadə çıxış edərək Akademiyada elmin populyarlaşdırılması istiqamətində rəhbərlik tərəfindən qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirəcəklərini, bu sahədə bilik və bacarıqlarını nümayiş etdirəcəklərini diqqətə çatdırıb, təkliflərini bildirib.

Müşavirədə AMEA Rəyasət Heyətinin elmi katibi iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov, AMEA Rəyasət Heyəti aparatının şöbə müdirləri - filologiya üzrə fəlsəfə doktoru Aynur Mahmud, filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, Kamran Mustafayev və Elmin populyarlaşdırılması şöbəsinin əməkdaşları iştirak və çıxış ediblər.

## *Akademik:* Türk dövlətlərinin rəqəmsal resurslarının vahid platformada inteqrasiyası zərurətə çevrilib

**Müasir dövrdə xalqlar və dövlətlər yalnız real məkanda deyil, virtual mühitdə də rəqabət aparır. Bəzi hallarda bu rəqabət informasiya müharibəsi səviyyəsinə yüksəlir və tarixi ziddiyyətlər rəqəmsal məkanda öz əksini tapır. Bu şəraitdə vahid virtual Türk dünyasının formalaşdırılması strateji əhəmiyyət daşıyır.**

Bu fikirləri açıqlamasında AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev deyib.



Akademik bildirib ki, ayrı-ayrı türk dövlətlərinin mövcud rəqəmsal resurslarının vahid platformada inteqrasiyası, virtual Türk dünyasının arxitekturasının yaradılması və kibersuverenliyinin təmin olunması artıq zərurətə çevrilib.

"Bu məqsədlərə nail olmaq üçün humanitar sahə alimləri ilə yanaşı, informasiya texnologiyaları üzrə mütəxəssislərin də prosesdə fəal iştirakı vacibdir. Yalnız elmi və texnoloji potensialın birgə səfərbər edilməsi ilə vahid, təhlükəsiz və dayanıqlı virtual Türk dünyasının formalaşdırılması mümkün olacaq", - deyə R.Əliquliyev bildirib.

## İstanbul Universitetinin professorları Şərqşünaslıq İnstitutunda

**Türkiyənin İstanbul Universitetinin professorları Osman Fikri Sertkaya və Ayşe Gül Sertkaya AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda olublar.**



Elmi müəssisənin direktoru akademik Gövhər Baxşəliyeva ilə keçirilən görüşdə professor Osman Fikri Sertkaya Bakıya öncəki səfərlərindən, Azərbaycan alimləri ilə dostluğundan danışıb, Azərbaycanın onun qəlbində həmişə dərin iz qoyduğunu deyib.

Akademik Gövhər Baxşəliyeva Şərqşünaslıq İnstitutunda türkologiya sahəsində aparılan tədqiqatlardan, çap olunan kitablardan bəhs edib.

Daha sonra türk alimlər Şərqşünaslıq İnstitutunun kollektivi ilə görüşüblər. Professor Osman Fikri Sertkaya Bakıya 38 il öncəki ilk səfərindən və sonrakı ziyarətlərindən danışıb. Türkoloq-alim, həmçinin ərsəyə gətirdiyi əsərlərindən söz açıb. O, türkcə əsərlərdən savayı almanca nəşr olunan iki kitabından bəhs edib, həmçinin seçilmiş əsərlərinin yaxın vaxtlarda ingiliscə və fransızca nəşr olunacağını bildirib.

Professor Ayşe Gül Sertkaya bütün Türk dünyası ölkələrini gəzdiyini söyləyib, Bakının onun qəlbində xüsusi yeri olduğunu vurğulayıb.

Daha sonra türk professorlar institut əməkdaşlarının suallarını cavablandırıblar.

## AMEA-da "Türk dünyası həftəsi" çərçivəsində keçirilən konfrans qardaş ölkənin mediasında

**Xəbər verdiyimiz kimi, AMEA-nın Rəyasət Heyətində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş "Türk dünyası həftəsi" çərçivəsində "Rəqəmsal Türkologiya" adlı panel iclas təşkil edilib.**

Bununla bağlı qardaş Türkiyənin "karabukmedya", "antalyaaktifhaber", "son24saat", "onemliduyuru", "bombagundem", "07hakkinda", "sondakikaantalya", "akdenizguncel", "haber7antalya", "bizimulke", "antalyaduyuru", "07haber", "globalbakis", "guvengazetesi", "yesiligdir", "haberiniz", Şimali Kipr Türk Respublikasının "ajanscyprus" kimi saytlarında geniş materiallar yayımlanıb.

## Azərbaycan elminə ağır itki üz verib



Azərbaycanda kimya elminin inkişafında mühüm xidmətləri olan görkəmli alim, "Şöhrət" ordenli, Elm və Təhsil Nazirliyinin Kimya İnstitutunun baş elmi işçisi, akademik Əjdər Əkbər oğlu Məcidov 2026-cı il iyulun 8-də 88 yaşında vəfat edib.

Əjdər Məcidov 1938-ci il martın 6-da Bakı şəhərinin Sabunçu qəsəbəsində anadan olub. 1941-ci ildə ailəsi atasının neftçi-mütəxəssis kimi "İkinci Bakı" rayonuna ezam olunması ilə əlaqədar olaraq Kuybışev vilayətinin Poxvistnev şəhərinə köçüb və orada orta təhsilini almağa başlayıb. 1950-ci ildə ailə yenidən Bakıya qayıtdıqdan sonra təhsilini davam etdirib. 1955-ci ildə orta təhsilini Bakıda bitirib. Elə həmin ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə daxil olub və 1960-cı ildə həmin fakültəni bitirib. Əmək fəaliyyətinə universiteti bitirməzdən bir il əvvəl, 1959-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda baş laborant, sonra isə baş texnik vəzifəsində başlayıb. Daha sonra Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda kiçik elmi işçi, həmçinin Bakı şəhərində yerləşən "Proletariy" zavodunda bir il sex ustası vəzifəsində çalışıb.

1961-ci ildə məqsədli aspiranturaya qəbul olunaraq Azərbaycan SSR Elmlər Akademiyasının Kimyəvi Fizika İnstitutuna göndərilib. Aspiranturanı bitirdikdən sonra Oka sahilində yerləşən Puşçino şəhərində Molekulyar Biologiya İnstitutunda, daha sonra Moskva vilayətinin Çernoqolovka şəhərində Kimyəvi Fizika İnstitutunun filialında çalışıb. 1966-cı ildə professor M.B. Neymanın laboratoriyasında işləyərkən "Radikallar və ion-radikalların iştirakı ilə oksidləşmə-reduksiya reaksiyaları" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

1969-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri vəzifəsini tutmaq üçün müsabiqədən keçib. Onun təşkil etdiyi fiziki-kimyəvi tədqiqat üsulları laboratoriyasında sintez olunmuş maddələr praktikada tətbiq olunub.

1984-cü ilin aprelində "Paramaqnit liqandlarla metal kompleksləri" mövzusunda kimya elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 1985-ci ildə professor elmi adı alıb. 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilib.

Əjdər Məcidovun elmi fəaliyyətinin əsas istiqamətlərindən biri stabil radikallar saxlayan paramaqnit liqandlı metal komplekslərinin tədqiqidir.

Əjdər Məcidovun digər elmi istiqaməti keçid metalları komplekslərinin reaksiya qabiliyyəti və katalitik aktivliyinin öyrənilməsidir. Bu sahədə onun bilavasitə rəhbərliyi altında:

- diariltriazen komplekslərinin ?- və sikloolefinlərin oksidləşməsində effektiv təşəbbüskar olduğu müəyyən edilib;
- Cu(II) diariltriazen komplekslərinin parçalanması EPR üsulu ilə öyrənilib;
- nikel və kobalt oksamatları əsasında olefinlərin (etilen və propilen) oliqomerləşməsi üçün effektiv katalitik sistemlər hazırlanıb.
- kompleks katalizatorların iştirakı ilə 2,6-di-tert-butilfenolların müvafiq difenoxinonlara və bisfenollara oksidləşdirici qoşulma üsulları işlənib hazırlanıb.

Əjdər Məcidovun elmi işlərinə bir çox nüfuzlu alimlər tərəfindən geniş şəkildə sitat gətirilib. Onun rəhbərliyi altında 30 namizədlik və 2 doktorluq dissertasiyası müdafiə olunub.

2014-2016-cı illərdə "SOCAR" Elm Fondunun qrantı (№ 007) layihəsinin rəhbəri olub. 1992-1994-cü illərdə İstanbuldakı Marmara Universitetində fəaliyyət göstərib. 1995-1998-ci illərdə dəfələrlə Mərmərə Universitetində ezamiyyətdə olub.

400-dən artıq elmi əsərin və 27 müəllifik şəhadətnaməsinin müəllifi idi. 1979-cu ildə SSRİ Kimya Sənayesi Nazirliyinin fəxri fərmanı, 1986-cı ildə "Əməkdə fərqlənməyə görə" medalı, Azərbaycan EA-nın fəxri fərmanı və 2005-ci ildə "Şöhrət" ordeni ilə təltif edilib.

Akademik Əjdər Məcidov zəngin elmi irsi, yüksək ziyalılığı, prinsipiallığı və insanpərvərliyi ilə həmkarlarının, tələbələrinin və onu tanıyan hər kəsin dərin hörmətini qazanıb. Onun əziz xatirəsi Azərbaycan elmi ictimaiyyətinin yaddaşında daim yaşayacaq.

Allah rəhmət eləsin!

***AMEA-nın Rəyasət Heyəti***

# İradə Hüseynova: 1969-cu il 14 iyul Azərbaycanın elm və təhsil tarixində strateji inkişaf mərhələsinin başlanğıcıdır

**1969-cu il 14 iyul Azərbaycan tarixində mühüm siyasi hadisə olmaqla yanaşı, ölkənin elm, təhsil, milli kadr hazırlığı və intellektual potensialının inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi də xüsusi əhəmiyyət daşıyır. Həmin tarixdən etibarən Azərbaycanda dövlət idarəçiliyinin əsas istiqamətlərindən biri kimi insan kapitalının formalaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, elmi müəssisələrin inkişafı və yüksəkixtisaslı mütəxəssislərin hazırlanması məsələlərinə sistemli şəkildə yanaşılıb.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya İnstitutunun baş direktoru vəzifəsini icra edən, akademik İradə Hüseynova söyləyib.

Akademik bildirib ki, XX əsrin ikinci yarısında dünyanın aparıcı ölkələrində elmi-texniki tərəqqinin sürətləndiyi, bilik və innovasiyanın dövlətlərin inkişafında əsas amilə çevrildiyi bir dövrdə Azərbaycanda elm və təhsilə strateji sahə kimi yanaşılması mühüm nəticələr yaradıb.

"1969-cu il 14 iyul Azərbaycan tarixində yalnız idarəçilikdə dəyişikliklə deyil, həm də elm və təhsil siyasətinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi ilə yaddaqalan bir tarixdir. Həmin dövrdə formalaşdırılan elmi və təhsil infrastrukturu sonrakı onilliklərdə Azərbaycanın milli inkişafının əsas dayaqlarından birinə çevrilib", - deyə akademik qeyd edib.

1969-cu ildən sonra Azərbaycanda təhsilin bütün pillələri üzrə genişmiqyaslı inkişaf proqramları həyata keçirilib. Ümumtəhsil məktəblərinin şəbəkəsi genişləndirilib, yeni məktəb binaları inşa edilib, mövcud təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilib.

Həmin dövrdə pedaqoji kadr hazırlığına xüsusi diqqət göstərilib. Müəllim peşəsinin nüfuzu artırılıb, ali pedaqoji təhsil müəssisələrinin fəaliyyəti genişləndirilib, gənc müəllimlərin hazırlanması və bölgələrdə təhsil səviyyəsinin yüksəldilməsi üçün mühüm tədbirlər həyata keçirilib. Ali təhsil sahəsində də ciddi irəliləyişlər əldə olunub. Yeni ixtisas istiqamətləri yaradılıb, elmi-pedaqoji potensial gücləndirilib. Tələbələrin tədqiqat proseslərinə cəlb olunması, gələcək alim və mütəxəssislərin hazırlanması üçün geniş imkanlar yaradılıb.

1970-1980-ci illərdə minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ölkənin gələcək inkişafı üçün mühüm investisiya xarakteri daşıyıb. Həmin universitetlərdə təhsil alan azərbaycanlı tələbələr mühəndislik, tibb, fundamental elmlər, energetika, kosmik texnologiyalar, iqtisadiyyat, hüquq, hərbi sahə və digər strateji istiqamətlər üzrə yüksək hazırlıq keçirdilər. Bu mütəxəssislərin böyük hissəsi Azərbaycana qayıdaraq ölkənin elmi, iqtisadi və idarəçilik potensialının inkişafına mühüm töhfələr verib.

Akademik İradə Hüseynova vurğulayıb ki, milli kadr hazırlığı siyasəti Azərbaycanın gələcək müstəqilliyi üçün intellektual baza yaradıb. Həmin illərdə yetişən mütəxəssislər müstəqillik dövründə ölkənin müxtəlif sahələrində aparıcı mövqelər tutublar.

1969-cu ildən sonra Azərbaycan Elmlər Akademiyasının fəaliyyəti genişləndirilib, elmi-tədqiqat institutlarının maddi-texniki bazası möhkəmləndirilib, fundamental və tətbiqi tədqiqatların aparılması üçün imkanlar artırılıb. Geologiya, neft-kimya, fizika, riyaziyyat, kimya, biologiya, genetika, kənd təsərrüfatı elmləri, tibb, tarix, arxeologiya, dilçilik və ədəbiyyat sahələrində fəaliyyət göstərən elmi müəssisələr Azərbaycanın elmi potensialının əsas mərkəzlərinə çevrilib. Azərbaycan alimlərinin əldə etdiyi nəticələr keçmiş SSRİ miqyasında yüksək qiymətləndirilir, bir sıra istiqamətlər üzrə aparılan tədqiqatlar beynəlxalq elmi mühitdə də maraq doğururdu.

XX əsrin ikinci yarısında dünya elmində molekulyar biologiya, genetika və biotexnologiya istiqamətlərinin sürətli inkişafı müşahidə olunurdu. Azərbaycanda da bu sahələrin inkişafı üçün mühüm elmi baza formalaşdırılıb. Genetika, biokimya, mikrobiologiya, bitki fiziologiyası və digər istiqamətlər üzrə aparılan tədqiqatlar genişləndirilib. Müasir dövrdə genomika, molekulyar genetika, bioinformatika, bitki biotexnologiyası, genetik ehtiyatların qorunması və biomüxtəlifliyin molekulyar əsaslarının öyrənilməsi istiqamətlərində aparılan araşdırmalar Azərbaycan elmi prioritetləri sırasında yer alır.

Azərbaycanın elm və təhsil sahəsində əldə etdiyi nailiyyətlərin əsasını təşkil edən mühüm mərhələlərdən biri məhz 1969-cu il 14 iyul tarixindən başlayan inkişaf xətti ilə bağlıdır. Bu gün ölkənin elmi və təhsil potensialının inkişafında həmin tarixi mərhələnin yaratdığı imkanların mühüm rolu qalmaqdadır. Azərbaycanın elm və təhsil siyasətində insan kapitalına verilən yüksək dəyər ölkənin davamlı inkişafının əsas amillərindən biri olaraq qalır. Bu tarixi irs yeni çağırışlar fonunda daha da zənginləşdirilir. Elm və təhsilin qarşılıqlı əlaqəsinin gücləndirilməsi, innovativ düşüncənin təşviqi, gənc nəslin müasir bilik və bacarıqlarla formalaşdırılması Azərbaycanın strateji inkişaf prioritetləri sırasında yer alır.

# Bülövqaya yaşayış yerində aparılan arxeoloji tədqiqatlarla tanışlıq

**Naxçıvan Muxtar Respublikasının Babək rayonu, Göynük kəndi yaxınlığında yerləşən Bülövqaya yaşayış yerində aparılan tədqiqat işlərinə baxış keçirilib.**



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, bölmə əməkdaşları və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı tədqiqat yerində olublar.

Bülövqaya yaşayış yerində tədqiqat işləri AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyevin rəhbərliyi ilə Bülövqaya arxeoloji ekspedisiyası tərəfindən aparılır.

Baxış zamanı ekspedisiyanın rəhbəri Vəli Baxşəliyev Bülövqaya yaşayış yeri və orada aparılan qazıntılar barədə ətraflı məlumat verib. Professor bildirib ki, Sarısu çayının sol sahilində, strateji cəhətdən əlverişli mövqedə yerləşən bu məskən Erkən Eneolit dövrünün (eramızdan əvvəl VI-V minillik) regional xüsusiyyətlərini öyrənmək üçün unikal abidədir. Yaşayış yeri Naxçıvanın qədim tarixinin, köçmə maldarlıqla məşğul olan tayfaların mədəniyyətinin və regionun Yaxın Şərqlə, xüsusilə Urmiya hövzəsi və Şimali Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələrinin öyrənilməsi baxımından böyük elmi əhəmiyyət daşıyır.

Aparılan tədqiqatlar göstərir ki, Bülövqaya yaşayış yerinin mədəni təbəqəsi relyefə uyğun olaraq fərqli qalınlıqda toplanıb. Evlər yarımqazma tipli olub yüngül konstruksiyalı, dördkünc formalıdır və təsərrüfat həyətlərinin ətrafında salınıb. Arxeoloji qazıntılar zamanı buradan Erkən Eneolit dövrü üçün xarakterik saman qarışıqlı və boyalı keramika nümunələri, dəvəgözü (obsidian) və çaxmaqdaşından hazırlanan əmək alətləri, eləcə də sümük alətlər aşkarlanıb. Bu tapıntılar Naxçıvanın Cənubi Qafqazın ən qədim mədəniyyət mərkəzlərindən biri olduğunu sübut edir.

Akademik İsmayıl Hacıyev ərazidə aparılan tədqiqat işlərinin gedişatını yüksək qiymətləndirib. Vurğulanıb ki, bu cür arxeoloji qazıntılar bölgənin qədim dövr tarixinə işıq salmaqla yanaşı, Azərbaycanın zəngin maddi-mədəni irsinin beynəlxalq miqyasda tanıdılması üçün mühüm rol oynayır.

Sonda abidənin gələcək tədqiqat perspektivləri müzakirə olunub və bu istiqamətdə müvafiq tapşırıqlar verilib.

# Azad Həmkarlar İttifaqının Rəyasət Heyətinin iclası




**AMEA-nın Azad Həmkarlar İttifaqının (AHİ) Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA AHİ-nin aparatı, Rəyasət Heyətinin üzvləri və həmkarlar təşkilatlarının sədrləri iştirak edib.

İclası giriş sözü ilə AMEA AHİ-nin sədri s.e.ü.f.d., dosent Sənan Həsənov açaraq, gündəlikdəki məsələlərlə iştirakçıları tanış edib.

Sənan Həsənov qeyd edib ki, 2026-cı ilin birinci yarısında AMEA AHİ-nin fəal iştirakı və təşkilatçılığı ilə bir sıra mühüm layihələr, tədbirlər həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə AMEA-nın qarşısına qoyulan vəzifələrin icrasında həmkarlar təşkilatı fəal iştirak edib. Son 6 ay ərzində üzvlərin sosial problemlərinin həllində, əmək hüquqlarının qorunmasında, istirahətlərinin təşkil olunmasında görülmüş işlər isə müsbət qiymətləndirilib.

Sonra yay mövsümündə üzvlərə yollayışların verilməsi ilə bağlı şəffaflığın, operativliyin və növbəlilik prinsipinin önə çəkildiyi bildirilib və bu istiqamətdə qarşıya çıxan problemlərin həlli yolları haqqında fikir mübadiləsi aparılıb. Bu istiqamətdə üzvlər arasında maarifləndirmə işlərinin gücləndirilməsi təşkilat sədrlərinə tövsiyə edilib.

Eyni zamanda kollektivlərdə həmrəyliyin təmin olunması, işçilər arasında sağlam elmi mühitin qorunmasına dair məsələlər, nizam-intizama riayət olunması müzakirə olunub, şikayət və müraciətlərin həllində həmkarlar təşkilatının, elmi müəssisə və təşkilatların rəhbərlərinin üzərlərinə düşən vəzifələrə dair fikir mübadiləsi aparılıb.

Sonra əməyin texniki müfəttişi Həsənqulu Qurbanov görülmüş işlər barədə məlumat verib, təhlükəsiz əmək şəraitinin formalaşdırılmasında hər kəsin fərdi məsuliyyətini bildirib, görüləcək işlərin məzmunu barədə fikirlərini çatdırıb.

İclasda AMEA Rəyasət Heyəti Həmkarlar Təşkilatının sədri Aynur Mahmud, Şərqşünaslıq İnstitutunun Həmkarlar Təşkilatının sədri Sübhan Talıblı, Folklor İnstitutunun Həmkarlar Təşkilatının sədri Aynur İbrahimova və digər şəxslər çıxış edərək AHİK-in səmərəli və şəffaf iş prinsipinə dair qarşıya qoyduğu yeni istiqamətlərin əhəmiyyətini vurğulayıb, bir sıra maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Beynəlxalq elmi konfransda



**Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Beynəlxalq narkomaniyaya və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə gününə həsr edilmiş Tbilisi Dövlət Texniki Universitetinin və Cinayət hüququ Departamentinin təşkilatçılığı ilə Beynəlxalq elmi konfrans keçirilmişdir.**

Konfransda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfi-hüquqi təlimlər və suverenlik şöbəsinin müdiri, hüquq üzrə elmlər doktoru, professor Habil Qurbanov respublikamızı təmsil etmişdir.

Professor Habil Qurbanov konfransda "Azərbaycan Respublikasında narkomaniyaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin beynəlxalq və milli mexanizmi" mövzusunda məruzə ilə çıxış edərək bu mübarizənin aktuallığını, beynəlxalq-hüquqi aspektlərini geniş şəkildə təhlil edib.

Məruzədə bu bəlaya qarşı mübarizənin beynəlxalq-hüquqi əsaslarını, Azərbaycan Respublikasının mürəkkəb coğrafiyasını, onun tranzit nəqliyyat koridorlarının kəsişməsində yerləşməsini (Şərq-Qərb və Şimal-Cənub) diqqətə çatdırmışdır.

Professor Azərbaycanda daha effektli mübarizə aparmaq üçün "Narkotik vasitələrin qanunsuz dövriyyəsi, psixotrop maddələrin və onların prekursorlarının hazırlanmasına qarşı" Dövlət Proqramının mütəmadi olaraq təkmilləşdirilməsi xüsusi qeyd etmişdir.

O, həmçinin bu proqramın hüquq mühafizə orqanları, səhiyyə və təhsil işçiləri üçün fəaliyyətlərində önəmli rol oynadığını göstərmişdir.

Professor bu mübarizənin tək bir dövlətin yox, sərhəddə yerləşən qonşu dövlətlərin də birgə fəaliyyət göstərmələrini qeyd etmişdir.

O, həmçinin Müstəqil Dövlətlər Birliyinin (MDB) Daxili İşlər Nazirlikləri və xüsusi xidmət orqanlarının mütəmadi olaraq birgə fəaliyyətlərinin effektivliyini də qeyd etmişdir.

Məruzənin sonunda alim bu bəlaya qarşı mübarizənin daha effektli aparılması üçün öz təkliflərini və mülahizələrini söyləmişdir.

Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış və göstərilən təkliflər ətrafında fikir mübadiləsi aparılmışdır.

# Azərbaycanın Qarabağa qayıdış layihəsinin elmi təsviri "ERIH PLUS" bazasına daxil olan "European Journal of Economics and Management Sciences"də



**"Avropanın İqtisadiyyat və İdarəetmə Elmləri" beynəlxalq jurnalının 2026-cı il 2-ci sayında Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti aparatının Elmi irs şöbəsinin müdiri tarix elmləri doktoru, professor Zemfira Hacıyevanın "Qarabağda "Ağıllı idarəetmə" metodlarının tətbiqi və perspektivləri" başlıqlı məqaləsi dərc olunub ("Application and perspectives of Smart management methods in Karabagh").**

Məqalədə Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafı üzrə beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilməsindən bəhs olunur. Tədqiqat ətraf mühitin mühafizəsinin gücləndirilməsi, meşə örtüyünün artırılması, deqradasiyaya uğramış torpaqların bərpası, yaşıllıq sahələrinin qorunması və genişləndirilməsi, su ehtiyatlarından səmərəli istifadə, o cümlədən dayanıqlı enerji mənbələrinin inkişafının təşviqini əhatə edir. Həmçinin məqalədə post-münaqişə dövründə Ermənistanın işğalından azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının həyata keçirilməsinə xüsusi yer ayrılır. Sözügedən layihələr müasir texnologiyaların tətbiqi və yüksək səviyyəli koordinasiya ilə səciyyələnir.

"Smart city" məfhumu və ondan yaranan layihələr Giriş, Dayanıqlı İnkişaf Strategiyasına əsasən Ağıllı mənzil və Elektron hökumət, Ağıllı Şəhər və Kənd quruculuğu beynəlxalq təcrübədə, Azərbaycanın siyasi strategiyası: azadlıqdan rəqəmsal transformasiyaya doğru, Böyük qayıdışın əsas aspektləri və prinsipləri, Ağıllı idarəetmə sistemlərində kommunikasiyanın rolu, Elektron hökumət anlayışı, əhəmiyyəti və xidmət sahələri adlı yarımbaşlıqlarda izah olunur.

# AMEA Rəyasət Heyətinin elmi katibi "Biznes Liderləri Zirvəsi 2026"da çıxış edib



**"Biznes Liderləri Zirvəsi 2026"da AMEA Rəyasət Heyətinin elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov iştirak edib.**

"Qarada Qırmızı" konsepti əsasında təşkil olunan Zirvə ölkənin aparıcı şirkətlərinin rəhbərlərini, top menecerləri, sahibkarları, investorları və müxtəlif sahələrin qərarverici şəxslərini bir araya gətirib. Tədbirin məqsədi müasir biznes idarəçiliyi, liderlik, strateji inkişaf, korporativ transformasiya, innovasiya və dəyişən biznes mühitində dayanıqlı inkişaf məsələləri üzrə fikir mübadiləsinin aparılması, eləcə də yeni əməkdaşlıq imkanlarının təşviqi olub.

Zirvə çərçivəsində liderlik strategiyaları, korporativ idarəetmə, süni intellektin biznesə təsiri, bazar davranışlarında baş verən dəyişikliklər, insan resurslarının inkişafı, şəxsi və korporativ brendinq, habelə gələcəyin biznes modelləri kimi aktual mövzular müzakirə edilib. Yerli və xarici ekspertlər, biznes liderləri və sahibkarlar müasir çağırışlar, inkişaf perspektivləri və uğurlu təcrübələr barədə fikirlərini bölüşüblər.

Tədbirdə iştirak edən AMEA Rəyasət Heyətinin elmi katibi Coşqun Məmmədov iştirakçıların məruzəçilərə sual və təkliflərini onlayn şəkildə ünvanlamasına imkan verən süni intellekt platformadan istifadə edərək süni intellektdən istifadə mədəniyyəti və bu texnologiyanın insan kapitalına təsiri ilə bağlı fikirlərini bölüşüb.

O qeyd edib ki, süni intellektin sürətli inkişafı və həyatın bütün sahələrinə nüfuz etməsi insan kapitalının gələcəyi ilə bağlı yeni yanaşmaların formalaşdırılmasını zəruri edir. Bu baxımdan əsas məsələlərdən biri texnoloji tərəqqi ilə insan potensialının inkişafı arasında optimal tarazlığın müəyyən edilməsidir.

Coşqun Məmmədov məruzəçilərə ünvanladığı sualda vurğulayıb ki, süni intellekt dövründə biznes və cəmiyyət qarşısında duran əsas suallardan biri investisiyaların prioritet istiqamətinin müəyyən edilməsidir: əsas diqqət texnologiyalara yönəldilməlidir, yoxsa insan kapitalına? Onun fikrincə, mühüm məsələ süni intellektin insanın inkişafını ləngidən rəqibə deyil, yaradıcılığını, bilik və bacarıqlarını gücləndirən etibarlı tərəfdaşa çevrilməsini təmin edən strategiyaların formalaşdırılmasıdır.

O, bildirib ki, süni intellektdən istifadənin məqsədi hazır nəticə əldə etmək deyil, insanın öz intellektual fəaliyyətinin məhsulu olan mətnlərin, tədqiqatların və ideyaların daha da təkmilləşdirilməsi olmalıdır. Onun sözlərinə görə, süni intellektdən korrektor, redaktor, məsləhətçi və öyrədici vasitə kimi istifadə edilməsi fərdin bilik potensialının inkişafına, analitik təfəkkürünün gücləndirilməsinə və davamlı öyrənmə prosesinin təşviqinə xidmət edir.

Coşqun Məmmədov eyni zamanda diqqətə çatdırıb ki, süni intellektdən yalnız hazır cavab və ya məhsul əldə etmək məqsədilə istifadə olunması insanın yaradıcı düşünmə, tənqidi təhlil və müstəqil qərarvermə bacarıqlarının zəifləməsinə səbəb ola bilər. Bu səbəbdən biznes və təhsil mühitində süni intellekt insan amilini əvəz edən deyil, onun potensialını artıran və fəaliyyətinin səmərəliliyini yüksəldən alət kimi qiymətləndirilməlidir.

Çıxışının sonunda o, süni intellekt texnologiyalarının tətbiqi şəraitində innovativ inkişafla insanın yaradıcılıq potensialının qorunması arasında tarazlığın təmin edilməsinə xidmət edən mexanizmlərin formalaşdırılması problemini elmi və praktik müzakirə predmeti kimi məruzəçilərin və iştirakçıların diqqətinə çatdırıb.

Səsləndirilən fikirlər tədbirin əsas müzakirə mövzularından biri olan insan-texnologiya münasibətlərinə dair aktual yanaşmanı əks etdirməklə yanaşı, süni intellektin inkişafında insan amilinin prioritetliyinin qorunmasının vacibliyini bir daha ön plana çıxarıb.

AMEA Rəyasət Heyətinin elmi katibi Coşqun Məmmədovun Zirvədə iştirakı elm və biznes arasında əməkdaşlığın genişləndirilməsi, innovativ idarəetmə yanaşmalarının təşviqi və ölkədə dayanıqlı iqtisadi inkişafla bağlı müzakirələrə töhfə verməsi baxımından əhəmiyyətli olub.

Qeyd edək ki, "Biznes Liderləri Zirvəsi 2026" liderlik, innovasiya və strateji inkişaf məsələlərinin müzakirə olunduğu, ölkənin biznes ictimaiyyətini bir araya gətirən nüfuzlu platformalardan biridir.

# Rəqəmsal elm dövrü: qlobal reytinqlər



**AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda "Rəqəmsal elm dövrü: qlobal reytinqlər" mövzusunda elmi seminar keçirilib.**

Rəqəmsal tarix-etnologiya və süni intellekt şöbəsinin təşkilatçılığı ilə keçirilən seminarı institutun elmi işlər və rəqəmsal inkişaf üzrə direktor müavini tarix elmləri doktoru İlqar Niftəliyev açaraq 2026-cı ilin birinci yarısında rəqəmsallaşma və süni intellekt sahəsində görülən, habelə planlaşdırılan işlər barədə məlumat verib.

Seminar çərçivəsində institutun elmi-tədqiqat şöbələri üzrə süni intellekt koordinatorlarının hesabatları dinlənilib, elmmetrik bazalar, rəqəmsallaşma və süni intellekt istiqamətində həyata keçirilən fəaliyyət müzakirə olunub.

Rəqəmsal tarix-etnologiya və süni intellekt şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru Nigar Camalova "Qlobal və yerli reytinq platformaları: GSRR, "SciRank Global", "National H-index Ranking" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə alim reytinqlərinin formalaşdırılması meyarları, reytinq cədvəllərinin növləri, beynəlxalq və yerli reytinq platformaları, həmçinin Azərbaycanın "National H-index Ranking" platforması barədə ətraflı məlumat verilib.

Nigar Camalova Azərbaycanın "National H-index Ranking" platformasında tədqiqatçıların qeydiyyat prosesini əyani nümayiş etdirib. Bildirilib ki, elmmetrik bazalarda tədqiqatçı profillərinin zənginləşdirilməsi alimlərin reytinq göstəricilərinin yüksəlməsinə müsbət təsir göstərir.

Seminarda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, eyni zamanda, növbəti elmi seminarın süni intellektəsaslı təhlil mövzusuna həsr olunacağı diqqətə çatdırılıb.

# Qazaxıstan MEA-dan AMEA-ya minnətdarlıq məktubu göndərilib

Qazaxıstan Milli Elmlər Akademiyasının Elmi-Texniki Əməkdaşlıq Mərkəzi tərəfindən AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinə minnətdarlıq məktubu göndərilib.

Məktubda deyilir:

*"Hörmətli xanım Günay Cəfərova,*

*Azərbaycan Milli Elmlər Akademiyasının arxiv materiallarını bizə təqdim etdiyinizə görə Sizə dərin təşəkkürümüzü bildiririk.*

*Biz AMEA-nın ölkələrimiz arasında əməkdaşlığın tarixinə dair belə əhatəli məlumatların hazırlanmasına sərf etdiyi vaxtı, səyi və göstərdiyi diqqəti yüksək qiymətləndiririk.*

*Səmimi təbriklərinə və xoş arzularına görə AMEA rəhbərliyinə də dərin minnətdarlığımızı çatdırmağınızı xahiş edirik. Akademiyalarımız arasında uzun illərə söykənən dostluq münasibətlərini və məhsuldar əməkdaşlığı yüksək qiymətləndirir, tərəfdaşlığımızın qarşıdakı illərdə də inkişaf edəcəyinə və möhkəmləncəyinə inandığımızı bildiririk.*

*Dəstəyinizə və dəyərli töhfənizə görə bir daha təşəkkür edirik.*

***Hörmətlə,***
***Şakerbayeva Botaqöz***
***Qazaxıstan Milli Elmlər Akademiyası".***

# AMEA Gənclər Akademiyası beynəlxalq əlaqələrini genişləndirir

**AMEA Gənclər Akademiyasında Qırğız Respublikası Milli Kitabxanasının direktoru Eldar Attokurov ilə görüş keçirilib.**



Görüşdə Gənclər Akademiyasının sədr müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Şəfa Əliyeva, El-mi-kütləvi tədbirlərin təşkili departamentinin müdiri filologiya üzrə fəlsəfə doktoru Orxan İsayev, Beynəlxalq Əməkdaşlıq Assosiasiyasının sədri filologiya üzrə fəlsəfə doktoru Arzu İsgəndərzadə və Rəqəmsal Mobillik Mərkəzinin müdiri kimya üzrə fəlsəfə doktoru Günel Əzimova iştirak ediblər.

Görüş zamanı qonağa Gənclər Akademiyasının fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr, beynəlxalq əməkdaşlıq əlaqələri, gənc alim və tədqiqatçıların elmi potensialının inkişafına yönəlmiş təşəbbüslər barədə ətraflı məlumat verilib. Tərəflər Azərbaycan və Qırğızıstan arasında elmi, mədəni və akademik əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Çıxış edən Eldar Attokurov Azərbaycan və Qırğızıstan xalqları arasında mövcud olan tarixi və mədəni bağların elm sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaratdığını bildirib. O qeyd edib ki, Qırğızıstanda da gəncləri birləşdirən elmi platformalar fəaliyyət göstərir və bu baxımdan iki ölkənin gənclər təşkilatları arasında əməkdaşlığın inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

AMEA Gənclər Akademiyasının təşkilatçılığı ilə həyata keçirilən səfər çərçivəsində Eldar Attokurov AMEA-nın bir sıra elmi müəssisələri ilə də tanış olub. Qonaq əvvəlcə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda olub. Burada institutun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini filologiya elmləri doktoru, dosent Mehman Həsənli ilə görüş keçirilib. Görüş zamanı qonağa institutun elmi fəaliyyəti, beynəlxalq əlaqələri və rəqəmsallaşma istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib.

Daha sonra Eldar Attokurov AMEA-nın Mərkəzi Elmi Kitabxanasında olub. Burada keçirilən görüşdə kitabxananın direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov və MEK-in elektron xidmətlər və informasiya resursları üzrə direktor müavini Oruc Quliyev iştirak ediblər. Qonağa kitabxananın fəaliyyəti, beynəlxalq əlaqələri, elektron xidmətləri və müasir informasiya resursları barədə ətraflı məlumat verilib. Eldar Attokurov kitabxananın sərgi salonları, oxu zalları, fondları və digər struktur bölmələri ilə yaxından tanış olub, burada yaradılmış şəraiti yüksək qiymətləndirib.

Sonda tərəflər elmi nəşrlərin mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, konfrans və seminarların təşkili, eləcə də Azərbaycan və Qırğızıstan arasında elmi-mədəni əlaqələrin daha da genişləndirilməsi istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıblar.

**Azərbaycan xalqı çox qədim və zəngin tarixə malik olmaqla bərabər, həm də özünəməxsus milli dövlətçilik ənənələri yaratmış bir xalqdır. Dörd min illik bir tarixi dövr ərzində tarixi Azərbaycan torpaqlarında əcdadlarımızın yaratdıqları dövlətlər milli tariximizin qızıl səhifələrni təşkil edir. Tarixin müxtəlif dövrlərində hərbi təcavüz və işğallara məruz qalsa da , heç vaxt işğal və əsarətlə barışmayan və öz milli tarixində Manna, Midiya, Atropatena, Albaniya, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Azərbaycan Atabəyləri, Azərbaycan Qaraqoyunlu, Azərbaycan Ağqoyunlu və mərkəzləşmiş Azərbaycan Səfəvilər dövləti və imperiyası kimi dövlətləri yaradan Azərbaycan xalqı dövrə və zamana uyğun milli xüsusiyyətləri özündə əks etdirən dövlət örqanizmi və idarəetmə sistemi yaratmış və onun yaratdığı dövlətlər uzunömürlü siyasi qurumlar olmuşdur.**




# Müstəqil Azərbaycan dövləti və milli diplomatiya tarixinə böyük töhfə

## *"Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri. I Kitab" əsəri haqqında qeydlər*

E.ə. IX əsrdə əcdadlarımızın yaratdıqları Manna dövləti IV əsr, Midiya dövləti 129 il,Atropatena dövləti 547 il, Azərbaycan Şirvanşahlar dövləti 676 il, Azərbaycan Atabəyləri dövləti 89 il, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri 100 il Azərbaycan Səfəvilər dövləti isə 236 il mövcud olmuşdur. Lakin XIX əsrin əvvəlində Azərbaycan ərazilərinin işğalına başlayan Rusiya imperiyası onun Şimal ərazilərini ələ keçirdikdən sonra, burada özünün ərazi-inzibati idarəetmə sistemini tətbiq etdi və Azərbaycan adı bu ərazilərin hamısının üstündən silindi. 1828-ci il martın 21-də Rusiya imperiyası işğal olunmuş İrəvan və Naxçıvan xanlıqları ərazisində ona öz nifrəti ilə seçilən Qacarlar dövləti və Osmanlı imperiyası ərazilərindən köçürülən ermənilər üçün heç bir tarixi və hüquqi əsas olmadan qondarma "Erməni vilayəti" adlı inzibati-ərazi vahidi yaratdı. 1830-cu ildən sonra ermənilərı kütləvi surətdə işğal olunmuş Şimali Azərbaycan ərazilərinə köçürülməsini həyata keçirən çar Rusiyası ,ondan sonra isə 1923-cü ildən 1982-ci ilədək bu cinayəti davam etdirən SSRİ dövləti mövcud olduğu dövrdə Qərbi Azərbaycan ərazilərinin 20,8 km2-ni ermənilərə verməklə 1920-1940,1948-1955 və 1988-1991-ci illərdə buranın yerli aborigen əhalisinin-azərbaycanlıların deportasiyasını canlı ölüm aləti olan erməni faşizminin əli ilə reallaşdırdı.

Qeyd etmək lazımdır ki, 1918-ci il mayın 29-da AXC Milli Şurasının İrəvan şəhəri və onun ətrafında yerləşən 9 min km$^2$ ərazilərin ermənilərə güzəştə gedilməsi Azərbaycan xalqına çox baha başa gəldi. Qərbi Azərbaycan ərazilərinin ermənilərin nəzarətinə keçməsi bu məkanda milli dövlətçiliyin müvəqqəti olaraq itirilməsinə səbəb olub. Lakin Azərbaycan xalqı ona qarşı törədilən bu cinayətləri unutmayıb və o müasir Azərbaycan milli dövlətçiliyini bərpa edən,müasir Azərbaycan dövlətinin banisi Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən Qərbi Azərbaycana Qayıdış konsepsiyasına uyğun olaraq bu ərazilərdə milli dövlətçiliyimizin bərpasına böyük inam yaratmışdır. Bu mənada həyatının 30 ilini AZƏRTAC ilə bağlayan Aslan Aslanovun nəşr etdiyi "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri. I KİTAB." adlı əsəri xüsusi olaraq diqqəti cəlb edir. 300 səhifədən və 5 fəsildən ibarət olan bu kitabda Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə onun yeni, müasir Azərbaycan dövlətini qurarkən istər daxili və istərsə də xarici siyasətdə atdığı addımların,qəbul etdiyi qərarların canlı şahidi kimi çıxış edir. Əsərin elmi məsləhətçisi Ulu Öndər Heydər Əliyevin köməkçisi olmuş,tarix elmləri doktoru,prof. Dilarə xanım Seyidzadədir. Əsərin redaktorları s. e. d. Hikmət Babaoğlu və əməkdar jurnalist Elman Qədirli onun I fəslini "Canlı salnaməçidən dövlətçilik tariximizə obyektiv baxış" adlandırmış və müəllifi doğru olaraq hadisələri bir başa yerindəcə qələmə alan şahid kimi təqdim edirlər. Bu fəsildə həm də müəllifin hələ Heydər Əliyevin hakimiyyətə gəlməsindən öncə hadisələrə şahidlik etdiyi və ondan sonrakı dövrdə isə Ulu öndərin informasiya siyasətində iştirakçı kimi fəaliyyəti göstərilmişdir. Əsərin II fəsli "Heydər Əliyev xilaskarlıq missiyasına necə başladı ?" adlanır və burada müəllif 38 səhifədə bu ümummilli missiyanın necə yerinə yetirilməsinin birbaşa iştirakçısı kimi çıxış edir və olnları günbəgün qeydə almışdır. Kitabın "Gənc Respublikanı dünya arenasına necə çıxardı?" adlanan III fəslində müəllif Ulu Öndərin gənc Azərbaycan dövlətini dünya dövlətlərinə və xalqlarına sərf etdiyi titanik səylər nəticəsində necə tanıdığından bəhs edir. 90 səhifəlik bu fəsli oxuduqca Ulu Öndərin yeni milli dövlət qurucusu , diplomatiyanın bütün incəliklərini dərindən bilən və dünya siyasətində çox yüksək çəkisi və nüfuzu olan görkəmli dövlət xadiminin fasiləsiz və gərgin əməyinin şahidi olursan.

Doğrudur, biz hamımız o dövrü yaşamış və hadisələrin şahidi olsaq da, müəllif Aslan müəllim və əsərin elmi məsləhətçisi Ulu Öndər Heydər Əliyevin köməkçisi olmuş, tarix elmləri doktoru, prof. Dilarə xanım Seyidzadənin gördüklərini, şahidi olduqlarını və qeydə aldıqlarını nəzərə alsaq onlar özümüzü müqayisə edə bilmərik. Ona görə də mən hesab edirəm ki,Aslan müəllimin nəşr etdiyi "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri. I KİTAB." adlı əsəri Azərbaycan tarixinin XX əsrin sonu-XXI əsrin əvvəli dövrünün dərin,geniş və obyektiv öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edən bir mənbədir. Çünki kitabın IV və V fəsillərinə nəzər saldıqda müəllif Ulu Öndər Heydər Əliyevin "Çoxlarına dərs olan dövlət quruculuğu və diplomatik məharət" və "Çox qısa müddətə müasir dövlət qururaq dünyanı heyrətə saldı" adlı bu bölmələrində Aslan müəllim bu böyük insanın və dahi şəxsiyyətin milli dövlət quruculuğu prosesini necə etdiyindən və bunun uğurla baş tutması üçün uğurlu diplomatik fəaliyyətindən ürək dolusu ilə bəhs edir. Hamının bildiyi və etiraf etdiyi məlum bir faktdır ki, Ulu Öndər Heydər Əliyev dünya və diplomatiya tarixini, o cümlədən Azərbaycan tarixini, mədəniyyəti,elminin bütün sahələrini və ədəbiyyatını çox dərindən bilirdi. Buna görə də Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri. I KİTAB. "adlı əsəri Azərbaycan tarixinin XX əsrin sonu-XXI əsrin əvvəli dövrünün tarixi ilə bərabər, Azəbaycanın milli dövlətçilik və diplomatiya tariximizin öyrənilməsi üçün çox sanballı tarixi mənbədir. Kitabın sonuna daxil edilən foto şəkillər əsərdə bəhs edilən hadisələri bir başa təsdiq edir və bu da əsərin necə sanballı əsər olduğunu təsdiq edir.

Mən Azərbaycan Respublikası tarixini tədqiq edən və yazan tədqiqatçı kimi Aslan müəllimi bu sanballı əsəri nəşr etdiyinə görə təbrik edir və onun davamı olaraq II və digər nəşrləri səbirsizliklə gözləyirik.

**Cəbi BƏHRAMOV**
**AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent**

# Oljas Süleymenovun "Yazının dili" linqvotarixi əsəri individual baxış kontekstində



**Oljas Süleymenovun ədəbi, folklor, epik, etnoqrafik, etnoloji, ideoqrafik, linqvistik səpkili və istiqaməti əsərlərinə nəzər saldıqda müəllifin dünyagörüşü ilə yaradıcılıq kredosu arasında ciddi yaxınlıqlar görünməkdədir. Onun dünyanı fəlsəfi yöndən dərki tarixi yaddaş problemlərinin həlli ilə müəyyənləşir və onun köməyi ilə özünü nəinki identifikasiya edir, həm də öz "mən"ini müəyyənləşdirir. Şair bütün hallarda inadkarlıqla öz xalqının "itirilmiş tarixini", hər şeydən öncə, özünü tapmaq üçün axtarışlar edir. Oljas Süleymenov yazır: "Hələ uşaqlıq dövründə oxumağı öyrəndiyim zaman hər gün öz xalqımın avamlıq və gerilik mənzərələrinə baxıb "zövq alırdım". Məhz həmin dövrlərdə mənim dünyagörüşümü hazırlaya biləcək insan xarakteri formalaşırdı. Elə həmin o vaxtlar mən qəlbimdə kiçik də olsa ənənənin əcdadlarımla bağlı olan məğrurluğunu hiss edib, məhz ona görə də onlara hörmət etməliydim. Məni inadla məcbur edirdilər ki, onlara yazığım gəlsin və onları şübhə altına alım.**

Oljas Süleymenov hesab edirdi ki, sırf təmiz, digər dillərlə qarışığı olmayan dil tapmaq mümkün deyildir. Dillərin hamısı müxtəlif çoxsaylı görüş və ünsiyyətlərin sintezinin məhsulu, nəticəsidir... Eyni zamanda Oljas yazır ki, mən nümunə gətirmişəm ki, koreya dilində 75 faiz çin sözləri olduğu halda, fransız dilində 25 faiz ərəb sözləri vardır. Lakin bu heç də hər hansı yazının əzəmətini azaltmır, əksinə onu ucaldır, onun tarixini bir az da uzadır, irəli çəkir. Bir müddət bundan öncə Ukrayna dilçiləri müxtəlif dillərdə mövcud olan söz formalarını hesablamış və müəyyənləşdirmişlər ki, fransız dilində - 100 000, alman dilində - 185 000, ukrayna dilində - 186 000, rus dilində isə 346 000 söz formaları vardır! Bu nəyin göstəricisidir?! Bu onu göstərir ki, rus dili qeyd edilən planda daha çox tarixidir. Çünki o kənar təsirlər üçün qapalı, bağlı olmamışdır. Və, əlbəttə, eyni zamanda onun tərkibində qırx faiz türkizmlər mövcuddur. . . Ruslar türklərlə heç də yalnız döyüş meydanlarında üz- üzə gəlmirdilər. Onların döyüş meydanlarında həm də "ura", yaxud "nizə", "yüyən" kimi sözlərlə tanış olmaları mümkün idi.

Oljas Süleymenov məsələyə daha dərin və əhatəli şəkildə özünün əksər əsərlərində, o cümlədən "Yazının dili", "Tanrının təbəssümü", "Sözün kodu", "Tarixəqədərki türklər" və s. kimi tədqiqat xarakterli nümunələrində problemə heç də ona qədər alimlərin mövcud olan baxış bucaqlarından yanaşmamış, özünün individual mülahizə və baxışlarını oxucuların nəzər-diqqətinə daha inandırıcı şəkildə çatdırmağa müvəffəq olmuşdur.

Digər məsələlərlə yanaşı, böyük sənətkarın yanaşmalarında dinlə yazı arasında da maraqlı qarşılıqlı əlaqələr ortaya qoymağa müvəffəq olduğu görünməkdədir. Onun fikrincə Aya inanma sonralar Günəş mifləri və dini ortaya gətirməklə, həm də öz növbəsində müxtəlif fəlsəfi təlim və sənət növlərinin başlanğıcında dayanmışdır: "Günəşə sitayişin nəhəng gövdəsi Aya sitayişin köklərinə söykənməklə ilkin insan inancına görə görkəmli dini baxışları ümumi insan inancından həmin rəmzləri əldə etməklə ortaya çıxır. İdeoqramlara çevrilmiş gerb, emblem, ornamental naxışlar, işarələr əvvəllər obrazlı yazılar olmaqla ilahi və əşyavi əhəmiyyəti əks etdirməklə, həm də özündə onların mənaları müəyyən müddətdən sonra sözə çevrilirdi.

Oljas Süleymenov daha sonra yazır: "Tarixdə hər hansı yazı, hər şeydən öncə, dini ideologiyanın ifadəçisidir. O yalnız bundan sonra dövlətin mədəniyyət atributunun ifadəçisinə çevrilir. Hər bir yeni din dünyaya öz yazısı ilə çıxmışdır. İudaizm - qədim yəhudi, xristianlıq - yunan, latın; buddizm - qədim hind; zərdüştilik - Avesta, müsəlmanlıq - ərəb... <... >. Sonsuz daş dövrünün dini artıq böyümüş, ortaya çıxmış insanın mənəvi və maddi mədəniyyətinin anası rolunu oynamışdır".

Ümumiyyətlə qeyd edək ki, Oljas Süleymenovun əksər əsərləri heç də sıradan olan oxucular üçün deyildir. Onun əsas əsərlərini arxeologiya, mifologiya, etnoqrafiya, etnologiya, dünya dinlərinin tarixi, ilahiyyat elmləri, fəlsəfə, biologiya, arxaik tarix, arxaik dövrlərdə mövcud olmuş qəbilə, tayfa, etnoslarla bağlı mükəmməl təsəvvürlər olmasa - nə tarixi-elmi, nə də fəlsəfi-nəzəri baxışlar mövqeyindən deşifrovka edilməsi mümkün deyildir. Oljas Süleymenovun fikrincə bu günün inkişafını və özəl istiqamətlərini anlamaq üçün keçmişi dərindən bilməyə ehtiyac vardır. Elə buradaca bildirək ki, Oljasın "Yazının dili" əsəri tam şəkildə "Yazının dili. Tarixəqədərki dövrə baxış - kiçik bəşər övladının yazısının və dilinin mənşəyi haqqında" adlanır. Sənətkarın bu kitabı "1001 söz" adı altında olmaqla Oljasın baxışında, həm də etimoloji lüğətə hazırlıq ərəfəsi kimi nəzərdən keçirilməsi daha məntiqə yatandır. Bu kitabda ənənəvidən fərqlənən sözlərin təhlil metodu xüsusi şəkildə izah olunur ki, burada sözün mənşəyi ilk heroqlif qrafik işarələrə söykənilərək genetik əlaqə zəminində nəzərdən keçirilir. Əlbəttə, qeyd etdiyimiz əsər O. Süleymenov tərəfindən heç də kiçik zaman kəsiyində araya-ərsəyə gətirilməmişdir. Sənətkar onun üzərində işləyərkən müxtəlif dillərdə olan etimoloji lüğətlərə müraciət etməklə bir neçə onillik davamlı olaraq onu zəruri kondisiyaya çatdırdıqdan sonra nəşr etdirmişdir. Məhz buna görə də bu əsərdə müxtəlif xalqların yazı və əlifbalarında yazı işarələrinin yaranması üzərində müəllif ardıcıl müşahidələr aparmış və filologiya elmini yeni, daha önəmli səviyyəyə qaldırmaqla dillərdə olan bir sıra çatmazlıqları daha çeşidli mövqelərdən işıqlandırmağa səy göstərmişdir. Elə buna görə də mütəxəssislər O. Süleymenovun adını çəkdiyimiz kitabını həm də "Yeni məktəb etimologiyası" adlandırırlar. Çünki O. Süleymenov hansı mövzuya toxunur-toxunsun, burada hər şeyi tarixiliklə novatorluq kontekstində nəzərdən keçirməyi üstün tutmuşdur.

Ədəbiyyat tənqidçiləri, nəzəriyyəçilər O. Süleymenovun heç də bir mərhələnin mütəfəkkiri, hər hansı sahə mütəxəssisi, bir xalqın, bir ölkənin yox, bəşəriyyətin keçmişini orijinallıqla araşdırmağı, əksər hallarda milli tarixi çərçivələrdən və sərhədlərdən uğurla adlamağı bacaran tədqiqatçı-alim kimi təhlil etməkdə haqlı olaraq təhlil etməkdə, öyrənməkdədirlər.

Oljasın yaradıcılığında köçəri obrazı, bir tərəfdən, dinamik və nəhayətsiz azadlıq simvoludursa, digər tərəfdən, sənətkarın yüksək mədəniyyət göstəricisi kimi ortadadır. O. Süleymenovun yaradıcılığı burada onun ədəbiyyata, bədii yaradıcılığa məxsus ikiqat fenomeninin göstəricisi kimi çıxış edir. O, hansı mövzunu diqqət mərkəzinə çəkməsindən asılı olmayaraq, onun ən səmərəli və nəzərə çarpan detallarının milli özünəməxsusluğuna nəzər yetirir. Burada etnik-milli obrazlılıq və kolorit, ənənəvi qazax mifologiyası (daha geniş kontekstdə isə türk, qıpçaq, şumer, etrusk, dünya xalqlarının etnoloji xüsusiyyətləri, dili, mifologiyası), dünya mədəniyyətinə məxsus kodlarla deşifrə olunur. Elə buna görə də onun çoxplanlı və rəngarəng bədii-poetik və linqvistik-ideoqrafik yaradıcılığı daim bu yöndə araşdırmaçıların nəzər-diqqətini cəlb edən proses kimi bu yöndə bir neçə səngimir və, ehtimal edirik ki, heç vaxt səngiməyəcəkdir. Akademik U. Kalijanov bununla bağlı yazır: "Onun yaradıcılığının özünəməxsusluğu ondadır ki, əsərlərini rus dilində yaratmasına baxmayaraq, o, daim qazax şairi kimi qalmaqla daim doğma xalqının taleyi üzərində düşünməkdədir".

Oljas Süleymenov xalqının köçəri həyatı keçirməsindən nəinki utanmaq, çəkinmək, əksinə həm də daim fəxr etmişdir. O, imkan düşdükcə digər xalqların və mədəniyyət daşıyıcılarının arasında olarkən hər bir sözün, mətnin dərin təhlilini aparmaqla bu tipli mətnlərdə türkizmləri arayıb-axtarıb, əsaslandırıb ortaya çıxarmışdır. Köçəri landşaftına heyran olduqca onun vətənpərvərliyi türk tarixinin lap dərin qatlarından gələn zəngin informasiyaları özündə əks etdirir. Süleymenov digər yaradıcı insanlardan fərqli olaraq sözlərin çoxvariantlı məna assosiasiyalarını işlətməklə özünün yaradıcılıq mövqeyinin hermenevtikasını ortaya çəkir, bəzən hər hansı təbiət hadisəsinin gözlənilməyən rəng palitrasını yaratmaqla ona müəyyən milli, tarixi və coğrafi kolorit bəxş edir. Qazax səhrası müəllifin fantaziyasında milli mental düşüncəylə bənzəmiləl kontekstdə özünün poetik "mən"inin ifadəsini illüstrasiyalarla əhatələyir. Oljasın yaradıcılığında köçərilər heç də yalnız tarixi personajlar kimi çıxış etmir, həm də Avrasiya mədəniyyətinin özülü, türk etnogenetik yaddaşının yüksək mədəniyyət daşıyıcıları kimi ortada dayanırlar.

Bütün qeyd etdiklərimizə söykənərək nəticə olaraq deyə bilərik ki, Oljas Süleymenov mədəni dialoq kontekstində köçərilərlə oturaq həyat tərzi keçirən xalqlar arasında olan qarşılıqlı münasibət və təsirləri də bu əsərində ustalıqla açmağa müvəffəq olmuşdur.

**Nizami MƏMMƏDOV TAĞISOY**
**professor**

YENİ NƏŞRLƏR

# Görkəmli memar Əcəmi Naxçıvaniyə həsr olunmuş biblioqrafik göstərici

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) tərəfindən orta əsrlər Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 900 illiyinə həsr edilmiş biblioqrafik göstərici nəşr olunub.**




Vəsaitə Möminə xatun türbəsinin bərpası və konservasiyası, görkəmli memarın abidəsinin ucaldılması, həmçinin yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin sərəncamları, eləcə də AMEA Rəyasət Heyətinin müvafiq qərarı daxil edilib.

Vəsaitdə Əcəmi Naxçıvani haqqında Azərbaycan və xarici dillərdə nəşr olunmuş kitablar, dövri mətbuatda və elmi məcmuələrdə dərc edilmiş məqalələr, dissertasiya və avtoreferatlar, həmçinin elektron resurslar toplanılıb. Bununla yanaşı, görkəmli şəxsiyyətlərin Əcəmi Naxçıvani haqqında söylədikləri fikirlər də nəşrdə öz əksini tapıb.

Kitabda vəsaitin elmi məsləhətçisi, AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Azərbaycan memarlıq məktəbinin banisi və universal zəka sahibi" adlı məqaləsi də yer alıb.

Nəşrin elmi redaktoru MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, tərtibçisi kitabxana əməkdaşı, Əməkdar mədəniyyət işçisi Xuraman İsmayılova, redaktoru isə İnnovativ layihələr və metodiki təminat şöbəsinin müdiri Səyyarə Məmmədova olub.

Biblioqrafik göstəricinin elektron versiyası ilə MEK-in rəsmi saytının "Elektron kitabxana" bölməsində tanış olmaq mümkündür.

# Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilmiş respublika elmi konfransının materialları

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Elmi şurasının qərarı ilə "Türkoloji Qurultay - 100" mövzusunda respublika elmi konfransının materialları çap olunub.**




Topluda professor Nadir Məmmədlinin "Birinci Türkoloji Qurultaydan öncə - tarixi kontekst", professor Mahirə Hüseynovanın "Birinci Türkoloji Qurultayın 100 illik tarixinin ilk mərhələləri", Baba Məhərrəmlinin "Birinci Türkoloji Qurultayın tarixi önəmi", Şükrü Halük Akalının "Birinci Türkoloji Qurultayın mirası", professor İsmayıl Kazımovun "Birinci Türkoloji Qurultayın türkologiyanın sonrakı inkişafına təsiri" və digər məqalələr yer alıb.

Professor Nadir Məmmədli məqaləsində qeyd edir ki, 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay Azərbaycanın dünya türkoloji ictimaiyyəti qarşısında mühüm tarixi hadisə olub, ölkəmizin bu sahədəki mövqeyini və yerini nümayiş etdirib, türkoloji elmi-praktik mühitin miqyasını aydın şəkildə göstərib. Bu qurultay SSRİ-nin sərhədlərini aşaraq beynəlxalq miqyasa çevrilib. Nəticə etibarilə, qurultay türk xalqlarının dili, ədəbiyyatı, etnoqrafiyası və coğrafiyasını araşdırmaq məqsədilə sistemli elmi tədbirlərin başlanğıcı olub.

# Vatikan arxivlərində saxlanan Azərbaycan əlyazmalarına aid kitab

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun mərhum alimi, tarix elmləri doktoru, professor Fərid Ələkbərlinin "Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar" ("Фарид Алекберли. Рукописи, свйазанные с Азербайджаном в архивах Ватикана") kitabı rus dilində nəşr edilib.**




Kitabı Azərbaycan dilindən rus dilinə böyük elmi işçi İradə Vəzirova və elmi işçi Nigar Məmmədova tərcümə ediblər.

Kitabda Vatikanın Məxfi Arxivində və Apostol Kitabxanasında mühafizə olunan Azərbaycan əlyazmaları və tarixi sənədləri haqqında ilkin elmi məlumatlar təqdim edilib. Bu materiallar nəşrin müəllifi Fərid Ələkbərli tərəfindən 2010-2014-cü illərdə Vatikana həyata keçirilmiş elmi ezamiyyətlər zamanı toplanıb. Ezamiyyətlərin əsas məqsədi Vatikanın zəngin arxiv və kitabxana fondlarında Azərbaycan tarixi və mədəni irsi ilə bağlı sənədlərin aşkar olunması və onların elmi-tədqiqata cəlb edilməsi olub. Araşdırmalar nəticəsində Vatikanın Məxfi Arxivində 700-dən çox sənəd öyrənilib və onlardan Azərbaycan tarixinə aid 85 sənəd müəyyənləşdirilib. Eyni zamanda, Vatikan Apostol Kitabxanasında 400-dən çox qədim əlyazma tədqiq edilib, orta əsrlər Azərbaycan müəlliflərinə məxsus 80 əlyazma əsəri aşkar olunaraq elmi dövriyyəyə təqdim edilib.

Nəşrin elmi redaktoru tarix elmləri doktoru, dosent Rəna Məmmədova, rəyçiləri isə filologiya elmləri doktoru, dosent Zəkiyyə Əbilova və böyük elmi işçi Xatirə Kərimovadır.

# Şirvanşahlar sarayının qədim ovdanında tədqiqat

## *İçməli suyun yeniləndiyi ehtimal edilir*

**AMEA Arxeologiya və Antropologiya İnstitutu və "İçərişəhər" Dövlət Tarix-Mədəniyyət Qoruğu İdarəsinin təşəbbüsü ilə Şirvanşahlar sarayının aşağı hissəsində yerləşən qədim ovdanda (yeraltı su anbarında) tədqiqat işləri həyata keçirilib.**



İnstitutun Xəzər arxeologiyası şöbəsinin sualtı dalğıc qrupu professor Abbas Seyidovun rəhbərliyi ilə ovdanın daxili hissəsinə baxış keçirib, sualtı çəkilişlər və araşdırmalar aparıb. Tədqiqatlar zamanı məlum olub ki, təxminən 600 il yaşı olan ovdan giriş xətti ilə birlikdə 30-35 kvadratmetr sahəyə malikdir və hazırda təxminən 3 metr hündürlükdə su ilə doludur. Suyun temperaturu 19 dərəcə təşkil edir. Aparılan müşahidələr suyun kimyəvi baxımdan təmiz, içməli və qoxusuz olduğunu göstərib. Həmçinin suyun bu gün də yenilənməyə davam etdiyi ehtimal olunur.

Qeyd edək ki, XIV əsrin sonu - XV əsrdə Şirvanşahlar Dərbəndilər sülaləsi tərəfindən Bakıda mühüm quruculuq işləri aparılıb. Həmin dövrdə müdafiə istehkamları möhkəmləndirilib, məscidlər, karvansaraylar, hamamlar, ovdanlar inşa edilib və su kəmərləri çəkilib. Bu su sistemlərindən biri olan Şah su kəməri Çəmbərəkənd su mənbəyindən İçərişəhərə qədər uzanaraq şəhərin su təminatında mühüm rol oynayıb.

Şirvanşahlar Sarayı Kompleksinin yaxınlığında yerləşən ovdan qədim su təchizatı sisteminin mühüm nümunələrindən biridir. Ovdanın divarları əsrlər boyu suyun təsiri nəticəsində minerallarla örtülüb. Tədqiqat zamanı onun əlavə giriş hissəsinin, eləcə də tavan tağında yerləşən və vaxtilə havalandırma və işıqlandırma funksiyası daşıya bilən iki hava kamerasının mövcudluğu müəyyən edilib.

Qədim ovdanın daha geniş şəkildə öyrənilməsi və gələcəkdə əlavə arxeoloji tədqiqatların aparılması nəzərdə tutulur. Aparılan araşdırmalar Bakının orta əsr su təsərrüfatı və memarlıq irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

# Cənubi Qafqaz üçün analoqu olmayan daş kürə



**Cəlilabad rayonunda Cənubi Qafqaz üçün analoqu olmayan sferik daş kürə aşkar edilib.**

Tapıntı Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, dosent Vəfa Mahmudovanın rəhbərliyi ilə Paşatəpə abidəsində aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılıb.

Vəfa Mahmudovanın sözlərinə görə, aşkar edilən sferik daş kürə Cənubi Qafqaz Neolit dövrünün indiyədək məlum olan ən maraqlı cilalanmış daş məmulatlarından biridir. Mövcud elmi nəşrlərə əsasən, bu tapıntının morfoloji baxımdan regionda birbaşa analoqu hələlik qeydə alınmayıb. Bu səbəbdən daş kürə həm hazırlanma texnologiyası, həm də funksional təyinatı baxımından xüsusi elmi əhəmiyyət daşıyır və Levant-Anadolu-Cənubi Qafqaz əlaqələrinin öyrənilməsi üçün yeni məlumat mənbəyi hesab olunur.

Alimin sözlərinə görə, tapıntının ən diqqətçəkən xüsusiyyəti onun üzərində heç bir deşik və ya zərbə izinin olmamasıdır. Daş kürənin hansı məqsədlə istifadə edildiyini hələlik dəqiq müəyyənləşdirmək mümkün deyil. Ehtimal edilir ki, o, ritual xarakteri daşıyıb və ya çəki ölçüsü kimi istifadə olunub. Bunun dəqiqləşdirilməsi üçün əlavə tədqiqatlar aparılacaq və müvafiq mütəxəssislər cəlb ediləcək.

Tapıntının çəkisi 1 kiloqram 870 qram, diametri isə təxminən 10 santimetrdir.

Vəfa Mahmudova bildirib ki, Paşatəpə abidəsində qazıntı sahəsi də genişləndirilib və tədqiqatlar 45-50 santimetr dərinlikdə davam etdirilib. Yeni qazıntı sahəsində qiymətli arxeoloji materiallar aşkarlanıb. İlkin araşdırmalar zamanı orta əsrlərə aid olduğu ehtimal edilən drenaj sistemi - su xətlərində istifadə olunan küp borular qeydə alınıb. Onların dəqiq dövrü sonrakı elmi tədqiqatlarla müəyyən ediləcək.

Bununla yanaşı, Əliköməktəpə abidəsində də baxış keçirilib. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Salyan Regional İdarəsinin əməkdaşları ilə birlikdə abidənin əvvəlki koordinatları müəyyənləşdirilib. Arxiv materialları əsasında aparılan araşdırmalar nəticəsində abidənin əsl mühafizə zonası dəqiqləşdirilib və hazırda zəbt olunmuş ərazinin sərhədləri üzə çıxarılıb.

Hazırda arxeoloji qazıntı və tədqiqat işləri davam etdirilir.

**Redaksiya heyəti:**
İsa Həbibbəyli, Dilqəm Tağıyev, İbrahim Quliyev,
Nərgiz Paşayeva, Rasim Əliquliyev, Tofiq Nağıyev,
İradə Hüseynova, Gövhər Baxşəliyeva, Arif Həşimov,
Cəmil Əliyev, İsmayıl Hacıyev, Fuad Əliyev

**Baş redaktor:** Ağahüseyn Şükürov

**Ünvan:** AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30.
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti
**e-mail:** elm.nauka.gazet@gmail.com

**Tiraj:** 1000

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

Сила в науке...
Низами Гянджеви

ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 23 (1505) ❖ Пятница, 17 июля 2026 года ❖ Газета выходит с 1984 года





# Научные связи расширяются

## Визит азербайджанской научной делегации в Китай завершился подписанием Меморандума о взаимопонимании

**В Новом районе Сюнъань, расположенном в провинции Хэбэй (Китай), состоялась 24-ая Конференция по международному обмену талантами, в которой принимали участие более 400 представителей из 30-ти стран мира. На торжественной церемонии ее открытия выступил президент НАНА академик Иса Габиббейли.**

Сказав, что связи между Азербайджаном и Китаем были установлены издревле посредством Великого шелкового пути, академик Габиббейли добавил, что в XII веке, опираясь на китайские мотивы, гениальный азербайджанский поэт Низами Гянджеви создал интересный образ в поэме "Семь красавиц" и подчеркнул, что крепкий фундамент современных азербайджано-китайских связей заложил общенациональный лидер Гейдар Алиев, и сегодня по политической воле Президента Азербайджана Ильхама Алиева и Председателя КНР Си Цзиньпиня сотрудничество между двумя странами широко и всесторонне развивается.

### Новые перспективы для гуманитариев

Отметив, что созданы все необходимые возможности и для расширения связей в области науки, академик Иса Габиббейли подчеркнул, что уже видны значимые результаты научно-технического обмена и сообщил, что Национальная академия наук Азербайджана сотрудничает с Китайской академией социальных наук, Хэбэйской академией общественных наук (ХАОН), Пекинским университетом иностранных языков, Хэбэйским педагогическим университетом (ХПУ) и т.д.: практические результаты принесли меморандумы о взаимопонимании, подписанные между НАНА и рядом научных организаций и вузов Китая.

